AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 19 (1479), 8 - 14 iyun 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## 5 boksçumuz Tokio-2020-yə lisenziya qazandı

Fransanın paytaxtı Parisdə boks üzrə Avropa Olimpiya təsnifat turniri keçirilir. Ötən il martın 14-də Londonda başlayan turnir koronavirus pandemiyası ilə əlaqədar üç gündən sonra dayandırılmışdı. Yarışda ölkəmizi kişilərdən ibarət millimizin heyətində Tayfur Əliyev (57 kq), Cavid Çələbiyev (63 kq), Lorenzo Sotomayor (69 kq), Alfonso Dominqes (91 kq), Məhəmməd Abdullayev (+91 kq) təmsil edirlər.

Turnirdə çıxış edən dünya çempionumuz Cavid Çələbiyev səkkizdəbir finalda irlandiyalı boksçu Corc Batesi məğlub edərək dörddəbir finala vəsiqə qazanıb. Boksçumuz 1/4 finala yüksəlməklə həmçinin Tokio Yay Olimpiya Oyunlarına vəsiqəni təmin edib.

Cavid Çələbiyevin (63 kq) ardınca isə Alfonso Dominqes (81 kq) də bu uğura imza atıb. Avropa Oyunlarının qalibi Avropa Olimpiya Təsnifat Turnirində yarımfinala yüksəlməklə Tokio-2020-də iştirak etmək hüququna sahib olub. O, dörddəbir finalda İmam Xatayevi (Rusiya) məğlub edib.

Yarımfinalda onun rəqibi Qazimaqomed Jalidov (İspaniya) olacaq.

Boks üzrə Azərbaycan milli komandasında Tokio-2020 Yay Olimpiya Oyunlarına dördüncü lisenziyanı Lorenzo Sotomayor qazanıb. Rio-2016-nın gümüş medalçısı Avropa Olimpiya Təsnifat Turnirində 1/2 finala yüksəlməklə Tokio-2020-də iştirak hüququna sahib olub. 69 kq çəki dərəcəsində mübarizə aparan boksçu belaruslu Aleksandr Radionovu məğlub edib.

Azərbaycan boksçusu Məhəmməd Abdullayev (+91 kq) də olimpiadaya vəsiqə uğrunda ilk döyüşünü uğurla keçirib. Ukrayna təmsilçisi Adam Kuliklə (Ukrayna) qarşılaşan M.Abdullayev səkkizdəbir final çərçivəsində baş tutan görüşdə 5:0 hesabı ilə qalib gəlib. O, dörddəbir finalda ukraynalı Tsotne Roqava ilə üz-üzə gəlib. İdmançımız görüşdə qalib gələrək yarımfinala yüksəlib. Bununla da Məhəmməd Abdullayev Tokio-2020-də iştirak hüququna sahib olub.

Beləliklə, Tokio-2020-yə lisenziya qazanan boksçularımızın sayı beşə çatıb.

## Formula 1 Azərbaycan Qran-Prisi "Red Bull Racing Honda" komandasının qələbəsi ilə başa çatıb

İyunun 6-da Bakıda Formula 1 üzrə dünya çempionatının altıncı mərhələsi - Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib.

Pilotların təqdimatından sonra iyunun 6-da dünyasını dəyişmiş ərəb əsilli fransalı iş adamı, Formula 1 üzrə dünya çempionatında komandası olan idman avtomobilləri istehsalçısı "McLaren" şirkətinin sərmayədarı Mansour Ojjehin xatirəsi yad edilib.

Sonra mötəbər yarışın xüsusi konsepsiya əsasında hazırlanan açılış mərasimi olub. Açılış mərasiminin əsas konsepsiyası Azərbaycan Qran-Prisinin builki çempionatın beşinci yarışı olmasına, eləcə də multikulturalizm və tolerantlıq ideyalarına əsaslanıb.

Formula 1 Azərbaycan Qran-Prisinin açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himnini Vətən müharibəsi qazisi Ataş Qarayev və Eurovision-2012 mahnı müsabiqəsində ölkəmizi təmsil edən Səbinə Babayeva səsləndiriblər. Himn səsləndirilən zaman trek üzərində dayanan müxtəlif millətlərin nümayəndələri əllərində Azərbaycan Respublikasının Dövlət Bayrağını tutublar. Onlar Bakıda keçirilən beşinci Formula 1 yarışını simvolizə edən və barış işarəsini əks etdirən "V" formasında dayanıblar.

*(ardı 2-ci səhifədə)*




## Yay Olimpiya Oyunlarına 45 gün qalır

TOKYO 2020



## *Təhsil Nazirliyi və Milli Olimpiya Komitəsi qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə edib*




Təhsil naziri Emin Əmrullayev və Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə arasında görüş olub. Görüş zamanı tərəflər arasında son illər daha da aktivləşən əməkdaşlığın davam etdirilməsi xüsusilə vurğulanıb. Emin Əmrullayev uğurlu əməkdaşlığın nəticəsi olaraq birgə layihələrin hazırlanması və icrasında Təhsil Nazirliyinin maraqlı olduğunu bildirib və əlavə edib ki, görülən işlərə dəstək olmaq nazirliyin əsas fəaliyyət istiqamətlərindən biridir.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə isə öz növbəsində Təhsil Nazirliyi ilə 2010-cu ildən başlayan aktiv əməkdaşlığın 2019-cu ildə nəinki ölkə, hətta Avropasəviyyəli Olimpiya Mədəniyyəti və Təhsili Proqramı (OCEP) ilə başa çatmasının ölkə əhəmiyyətli uğur olduğunu bildirib.

Görüşdə tərəflər qarşılıqlı əməkdaşlıqdan irəli gələn bir sıra vacib məsələləri müzakirə ediblər.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*

**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*





## Latviyanın Azərbaycandakı səfiri, AzƏOK-un üzvləri ictimai xadim Azad Rəhimovun məzarını ziyarət ediblər

Latviyanın Azərbaycan Respublikasındakı səfiri Dainis Qarançs, Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev və Komissiyanın üzvləri II Fəxri Xiyabanda tanınmış ictimai xadim Azad Rəhimovun məzarını ziyarət edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Qeyd edək ki, indiyədək Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin (BƏOK) prezidenti Jeno Kamuti, Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) prezidenti Kristian Hinterberger, baş katib İoanis Psilopoulos, vitse-prezident, Türkiyə Ədalətli Oyunlar Komissiyasının prezidenti, BƏOK-un üzvü Ərdoğan Arıpınar, Latviya Ədalətli Oyunlar Komisiyasının rəhbəri Baiba Veisa AzƏOK-a müraciət edərək, Azad Rəhimovun vəfatından kədərləndiyini bildirərək başsağlığı veriblər.

## *Azərbaycan Cüdo Federasiyasının prezidenti yenidən İJF-nin İcraiyyə Komitəsinə üzv seçilib*

Macarıstanın paytaxtı Budapeştdə Beynəlxalq Cüdo Federasiyasının (BCF) konqresi keçirilib. Konqresdə bütün üzv ölkələrin nümayəndələri, İcraiyyə Komitəsinin üzvləri və digər rəsmilər iştirak ediblər.

Tədbirdə ölkəmizi ACF-in baş katibi Elmar Babanlı təmsil edib.

Əvvəlcə BCF-in prezidenti Marius Vizerin hesabat məruzəsi dinlənilib. Hesabat məruzəsində cüdonun dünyada geniş təbliği istiqamətində nəhəng media şirkətləri ilə uğurlu əməkdaşlıqdan, cüdo yarışlarının məlum təqvimindən, idmanın bu növünün bütün dünyada inkişaf etdirilməsi üçün müxtəlif dövlətlərə edilən ianələrdən, təhsil məsələləri və gələcək hədəflərdən bəhs olunub.

Daha sonra təşkilatın baş katibi və maliyyə departamentinin rəhbərinin hesabatları dinlənilib.

Həmçinin BCF Nizamnaməsinin nizam-intizam və etik kodla bağlı qanunvericilik maddələrində dəyişikliklər edilib.

Konqresdə beynəlxalq qurumun rəhbər heyətinə seçkilər keçirilib. M.Vizer yeganə namizəd kimi yekdilliklə BCF-in prezidenti seçilib.

Daha sonra o, növbəti 4 il üçün İcraiyyə Komitəsi üzvlərinin siyahısını konqres iştirakçılarının diqqətinə çatdırıb. ACF-in prezidenti Rövnəq Abdullayev ikinci dəfə növbəti dörd il müddətinə BCF-in İcraiyyə Komitəsinə üzv seçilib.

Sonda BCF-in prezidenti M.Vizer iştirakçılara gördükləri işlərə görə təşəkkürünü bildirib və konqresin işinə yekun vurub.



## Rövnəq Abdullayev Beynəlxalq Cüdo Federasiyasının prezidenti ilə görüşüb

Cüdo üzrə dünya çempionatının keçirildiyi Macarıstanın Budapeşt şəhərində səfərdə olan Azərbaycan Cüdo Federasiyasının (ACF) prezidenti Rövnəq Abdullayev və Beynəlxalq Cüdo Federasiyasının (IJF) prezidenti Marius Vizer arasında görüş olub. Görüşdə R.Abdullayev Marius Vizeri növbəti 4 il müddətinə dünya cüdo təşkilatının rəhbəri seçilməsi münasibətilə təbrik edib. Azərbaycanda cüdonun inkişafı ilə bağlı həyata keçirilən tədbirlərdən danışan R.Abdullayev ölkə idmançılarının Yay Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında qazandıqları yüksək nailiyyətlərdən söhbət açıb.

Ölkədə cüdo idman növünün də zəngin ənənələrə malik olduğunu qeyd edən ACF prezidenti son vaxtlar Azərbaycan cüdoçularının dünyanın müxtəlif ölkələrində keçirilən “Böyük Dəbilqə” turnirlərində medallar qazandığını diqqətə çatdırıb. Səmimi görüşə görə minnətdarlığını bildirən M.Vizer Azərbaycanın artıq bütün dünyada idman ölkəsi kimi tanındığını söyləyib. O, dövlət səviyyəsində Olimpiya Hərəkatı və idmanın inkişafına göstərilən diqqətin dəfələrlə ümumdünya idman təşkilatları və federasiyaları tərəfindən qiymətləndirildiyini bildirib. Azərbaycan cüdoçularının gələcək beynəlxalq yarışlarda, dünya çempionatı və Olimpiya Oyunlarında da uğurla çıxış edəcəyinə ümidvar olduğunu söyləyən IJF prezidenti Bakıda ənənəvi “Böyük Dəbilqə” yarışlarının hər zaman yüksək səviyyədə keçirildiyini, bu mötəbər turnirdə beynəlxalq və yerli federasiyaların birgə işçi qrupunun səmərəli fəaliyyətini xüsusi vurğulayıb. Budapeştdə Beynəlxalq Cüdo Federasiyasının mükəmməl bir konqresinin keçdiyini bildirən Marius Vizer Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayevi 2-ci dəfə növbəti dörd il müddətinə qurumun İcraiyyə Komitəsinə üzv seçilməsi münasibətilə təbrik edib. Sonra cənab Vizer İJF-nin xüsusi hədiyyəsini Rövnəq Abdullayevə təqdim edib. Görüşün sonunda xatirə şəkili çəkdirilib.

# Formula 1 Azərbaycan Qran-Prisi “Red Bull Racing Honda” komandasının qələbəsi ilə başa çatıb

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan Respublikasının Dövlət Himninin bu mərasim üçün xüsusi versiyası tanınmış bəstəkar və musiqi prodüseri Azad Vəliyev tərəfindən hazırlanıb. Dövlət Himninin bu tərtibatı Konstitusiya ilə dəqiq müəyyənləşdirilmiş formada təqdim olunub.

Daha sonra Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışına start verilib. Qran-Pridə hər birində iki pilot olan on komanda mübarizə aparıb. Pilotlar uzunluğu 6 kilometr, yürüş marşrutunun ümumi məsafəsi isə 306 kilometr olan Bakı şəhər halqasında iki saat ərzində 51 dövrə vurublar.

Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

Maraqlı hadisələrin baş verdiyi və gərgin idman mübarizəsinin yaşandığı Azərbaycan Qran-Prisi “Red Bull Racing Honda” komandasının meksikalı pilotu Serxio Peresin qələbəsi ilə başa çatıb. O, Bakı şəhər halqasında 51 dövrəni hamıdan tez (1:44.703) başa vuraraq podiumda birinci pillənin sahibi olub. İkinci yeri “Aston Martin” komandasının almaniyalı sürücüsü Sebastian Fettel (1:45.138) qazanıb. “AlphaTauri” komandasının fransalı sürücüsü Pyer Qasli (1:45.588) isə yarışı üçüncü sırada tamamlayıb.

Qaliblərin mükafatlandırılması mərasimində podiumda yer alan pilotlara və Qran-Prinin qalibi olan “Red Bull Racing Honda” komandasının nümayəndəsinə kuboklar təqdim edilib.

Qalib idmançının və komandanın şərəfinə Meksikanın və Avstriyanın dövlət himnləri səsləndirilib.

Beləliklə, bu qələbə sayəsində Serxio Peres Formula 1 üzrə dünya çempionatında pilotların mübarizəsində iki pillə irəliləyərək 69 xalla üçüncü sırada qərarlaşıb.




Ümumilikdə altı Qran-Pridən sonra çempionata 105 xalla “Red Bull Racing Honda” komandasının niderlandlı pilotu Maks Ferstappen liderlik edir. Bəhreyn (26-28 mart), Portuqaliya (30 mart-2 may) və İspaniya (7-9 may) Qran-prilərinin qalibi olan M.Ferstappen aprelin 16-18-də keçirilmiş İtaliya və mayın 20-23-də təşkil olunan Monako Qran-prilərində ikinci yeri tutub.

“Mercedes” komandasının britaniyalı sürücüsü Luis Hamilton 101 xalla ikincidir. Onun həmyerlisi, “McLaren” komandasının pilotu Lando Norris (66 xal) dördüncü, “Ferrari”nin Monakodan olan pilotu Şarl Lekler (52 xal) isə beşinci sırada yer alıblar. Azərbaycan Qran-Prisində podiumda üçüncü pillədə yer alan Pyer Qasli 31 xalla səkkizinci sırada qərarlaşıb. Bakı yarışında üçüncü olan Sebastian Fettel isə 28 xalla 9-cu sıradadır.

“Red Bull Racing Honda” komandası Bakı Qran-Prisində qələbə sayəsində ikinci sıradakı “Mercedes” ilə xal fərqini 26-ya çatdırıb.

Hazırda bu komandanın 174 xalı var. “Ferrari” isə 94 xalla üçüncü sırada qərarlaşıb. “McLaren” komandası 92 xalla dördüncü, “AlphaTauri Honda” isə 39 xalla beşincidir.

Bu Qran-Pridə “Mercedes” komandasının pilotları xal qazana bilməyiblər. Belə ki, Valtteri Bottas yarışı 12-ci, Luis Hamilton isə 16-cı pillədə başa vurublar. Beləliklə, 2018-ci ildə Avstriya Qran-Prisindən sonra ilk dəfə bu komanda yarışda xal qazanmayıb.

Bakıda Formula 1 Azərbaycan Qran-Prisinə iyunun 4-də start verilib. Yarışın birinci günündə pilotlar Bakı trekində iki sərbəst yürüşdə mübarizə aparıblar. Növbəti gün isə Formula 1 pilotları üçüncü sərbəst yürüş və sıralanma turunda mübarizə aparıblar. Sıralanma yürüşündən sonra Formula 1 Azərbaycan Qran-Prisində pilotların düzülüşü müəyyənləşib. Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakıda Formula 2 yarışları da keçirilib.

Xatırladaq ki, Formula 1 yarışı Azərbaycanda 2016-cı ildən keçirilib. Birinci yarışda - Formula 1 Avropa Qran-Prisində “Mercedes” komandasının almaniyalı pilotu Niko Rosberq qalib gəlib. 2017-ci ildə təşkil olunan Formula 1 Azərbaycan Qran-Prisi “Red Bull Racing Honda” komandasının avstraliyalı pilotu Daniel Rikkardonun qələbəsi ilə başa çatıb. Ondan bir il sonra isə “Mercedes” komandasının britaniyalı sürücüsü Luis Hamilton Bakı şəhər halqasını fəth edib. 2019-cu ildə Formula 1 idmanı tarixində sayca 1001-ci Qran-Pri olan Bakı yarışında “Mercedes” komandasının pilotu Valtteri Bottas qalib adını qazanıb. Ötən il koronavirus pandemiyası ilə əlaqədar Formula 1 üzrə dünya çempionatının bir neçə mərhələsi, o cümlədən Azərbaycan Qran-Prisi ləğv edilib.

Formula 1 üzrə dünya çempionatının növbəti - yeddinci Qran-Prisi iyunun 18-20-də Fransada keçiriləcək. Çempionatın sonuncu - 23-cü Qran-Prisi isə dekabrın 10-12-də Abu-Dabidə təşkil olunacaq.

## *MOK federasiyalar üçün xüsusi toplanışlar təşkil edir*

Tokio-2020 Yay Olimpiya Oyunlarının Təşkilat Komitəsi Beynəlxalq Olimpiya Komitəsi (IOC) və Beynəlxalq Paralimpiya Komitəsi (IPC) ilə birlikdə COVİD-19 pandemiyası ilə əlaqədar yeni qaydalar toplusu hazırlayıb.

Təlimatları müstəqil ekspertlər və digər idman təşkilatlarından ibarət işçi qrup hazırlayıb.

MOK İdman Şöbəsinin baş məsləhətçisi Vaqif Əliyev bildirib ki, qaydalar toplusunda beynəlxalq qurumlar Milli Olimpiya Komitələrinə tələb və tövsiyyələrini çatdırıblar. MOK isə öz növbəsində qaydalar toplusunu tərcümə edib və federasiyalara yönləndirib. Qaydalar toplusu ilə bağlı federasiyalarla mariflənləndirmə işlərinə artıq start verilib.

MOK rəsmisinin sözlərinə görə, Taekvondo Federasiyası ilə maarifləndirmə təlimi artıq başlanılıb. Vaqif Əliyev bildirib ki, taekvondoçuların təlimlərinin səmərəli və təhlükəsiz keçirilməsi üçün Nazirlər Kabineti yanında Operativ Qərargahın qaydalarına uyğun şərait yaradılıb. Taekvondoçuların karantin qaydalarına uyğun təlimlərinin keçirilməsi üçün tədbirin baş tutacağı məkan brendləşdirilib.

İdmançılara COVİD-19 virusundan müdafiə olunmaq qaydalarından bəhs edən xüsusi təlimat kitabçaları paylanılıb. Təhlükəsiz şəraitdə təlim-məşq toplantılarını başa vurmaları üçün taekvondoçular komanda həkiminin nəzarəti altında olacaqlar. IOC-un Tokio-2020 Yay Olimpiya Oyunlarında COVİD-19- virusu ilə əlaqəli xüsusi qaydalar toplusunda yer alan yeni tələbləri təlim dövründə iştirakçılara çatdırılacaq.

Qeyd edək ki, qapalı məkanlarda məşq etmək icazəsi olmadığı üçün Tokio-2020 Yay Olimpiya Oyunlarına hazırlığın aparılması məqsədilə MOK ilk belə tədbiri Atletika Federasiyasının idmançıları ilə aparıb.

# OLİMPİYA 20 DÜNYASI



***Bu il 20 yaşını qeyd edəcək "Olimpiya dünyası" qəzeti bu müddət ərzində çoxsaylı oxucularına müxtəlif rubrikalarda yazılar təqdim edib. Bu rubrikalardan biri də "Sənətçi idman, idmançı sənət haqqında"dır. Adından göründüyü kimi, ölkəmizin tanınmış sənət adamları idmana olan marağından, idman sahəsində baş verən hadislərdən danışır. Adlı-sanlı idmançılarımız isə incəsənətdən - kino, teatr və digər sahələrdə əldə etdikləri bi-likləri oxucularla bölüşürlər. Bu sayımızda vaxtilə qəzetimizə müsahibə verən, lakin indi haqqın dərgahına qovuşan unudulmaz sənətkarları yada salacağıq. Xalq artistləri Siyavuş Aslan, Hacıbaba Bağırov və Amaliya Pənahovanın "Sənətçi idman, idmançı sənət haqqında" rubrikası altında müxtəlif illərdə "Olimpiya dünyası" qəzetinə verdikləri müsahibələrindən maraqlı məqamları yenidən diqqətinizə çatdırırıq.***

# Unudulmaz sənətkarlarımızın "Olimpiya dünyası"nda idmanla bağlı xatirələri



## Siyavuş Aslan: "Güclü zərbələrə məruz qaldığımdan boksdan uzaqlaşdım"

Uşaqlıqda hamı kimi, mən də idmanla məşğul olmuşam. O vaxt Bakı Dəmiryol Məktəbində təhsil almaqla yanaşı, boks bölməsinə gedirdim. Məşqlərdə rəqiblərim həmişə məni güclü zərbələrə "qonaq edirdilər". Gah gözümün altı qaralır, gah da burnum əzilirdi. Düzü, tez-tez zədələnmək qorxusu boksçu olmaq istəyimdən güclü çıxdı və mən bu idman növü ilə bir daha məşğul olmadım, necə deyərlər, güclü zərbələrə məruz qaldığımdan boksdan uzaqlaşdım. Amma bunu gənclərə məsləhət görməzdim. Bu hərəkətimə görə, sonradan peşman oldum. Əgər bir qədər dözümlülük nümayiş etdirsəydim, indi tanınmış boksçulardan biri olardım.

Uşaqlıq və gənclik illərimdə boks, futbol və sərbəst güləşə də böyük həvəs göstərmiş, bu idman növləri üzrə keçirilən bütün oyunları diqqətlə izləmişəm. O vaxt köhnə sirkdə həmişə sərbəst güləş üzrə respublika birincilikləri keçirilirdi. Tanınmış güləşçi Rəşid Yusifovun çıxışlarını izləməkdən böyük zövq alırdım.

Üzgüçülük ən çox sevdiyim idman növlərindən biridir. Həmişə məndən soruşanda ki, haralısan? Cavab verirəm: "Dənizçıraqlıyam". Bununla onu demək istəyirəm ki, dəniz sahilində böyümüş bir insan üçün suda üzmək o qədər də qorxulu deyil. Bədən quruluşu etibarı ilə kökəm. Buna baxmayaraq, yay fəslində məmnuniyyətlə dənizdə üzür, ləpələrin üzərində olmaqdan böyük zövq duyuram. Hamıya idmanla canla-başla, həvəslə məşğul olmağı məsləhət görürəm.

## Hacıbaba Bağırov: "Üçüncü dərəcəli boksçu olmuşam"

Futbolu kim sevmir? Əhməd Ələsgərovun vaxtında "Neftçi" o vaxt bir aləm idi. Çox arzu edirdim ki, sevimli komandamız əvvəlki şöhrətini yenidən özünə qaytarsın. Açığını deyim ki, özüm heç vaxt futbol oynamamışam. Uşaqlıqda küçəyə çıxmağı o qədər də sevməzdim. Öz-özümlə oynayar, ya da evdəkilərə teatr göstərərdim. Heç vaxt stadiona getmirəm. Bunun da səbəbi var. "Neftçi" nin böyük qələbələr qazanan vaxtı idi, maraq mənə güc gəldi və stadiona getdim. "Neftçi" qol vuranda özümü saxlaya bilməyib, hay-küy saldım. O vaxt "Ulduz" kinosu təzəcə ekranlara çıxmışdı, camaat məni tanıyırdı. Stadionda qışqıranda gördüm ki, hamı oyunu bir kənara qoyub, mənə tamaşa eləyir. Ondan sonra daha stadiona getmədim. O vaxtdan bu günə qədər oyunları evdə televiziya ilə izləyib azarkeşlik edirəm. Əlbəttə, canlı seyrin öz ləzzəti var.

Bir də voleybolu xoşlayıram. Yeri gəlmişkən, voleybolçu qızlarımızın oyununu böyük maraqla izləyirəm. Halal olsun o qızlara, bir də onların məşqçisi Faiq Qarayevə.

### Boks həmişə dadıma çatıb

İdmana həmişə böyük maraq göstərmişəm. Ümumiyyətlə, səhnədəki bütün hərəkətlərim idmandır. Müseyib adlı bir dostumla dəmir yolu məktəbində oxuyurdum. O, çox yaxşı boksçu idi və məndə bu idman növünə marağı da Müseyib oyatmışdı. Üçüncü dərəcəli boksçu olsam da, sonradan sənət güc gəldi və teatr səhnəsinə keçdim. Amma boksa marağım sonralar da məni tərk etmədi. Bir dəfə döyüləndə, bir dəfə də döyürdüm. Boks həm də özünümüdafiədir. Cavanlıqda dadıma çox çatıb, əsgərlikdə də karıma gəlib.

### Şahmat üzərində başsındırmaqla aram yoxdur

Şahmata baxmağı xoşlayıram, oynamağı yox. Necə deyərlər, başsındırmaqla aram yoxdur. Onsuz da teatrdakı işlər adamın beynini yorur. Hərdən vaxtım olanda həvəslə dama və domino oynayıram. Fiqurlu konkisürənləri çox sevirəm. Onların rəqsinə böyük maraqla baxıram. Bəlkə də, bu, mənim sənətimlə bağlıdır.

### Qaydasız döyüşlərə baxanda əsəbləşirəm

Qaydasız döyüşləri qəbul edə bilmirəm. Çünki bizim vaxtımızda belə şeylər yox idi. Nədənsə, qaydasız döyüşlərə baxa bilmirəm, o dəqiqə əsəbləşirəm.

### Volqa çayı az qala məni yuyub aparmışdı

Valideyinlərimin sağlığında hər yay dənizə gedib, çimərdik. Doğrudur, o qədər də fərasətli deyildim ki, üzüb uzaqlara gedim. Elə-belə qıraqda çimərdim. Sonralar dənizdə çimməkdən qorxdum. Bunun da tarixçəsi var.

1974-cü ildə Volqa sahilinə gəzməyə getmişdim. O vaxtı Stalinqrad şəhərinə gələndə çantalarımı gəmidə qoyub, "Mamayev Kurqan"a baxmağa getdim. Oranı gəzib qayıdanda gördüm ki, gəmi çayın ortasındadır. Dedilər ki, yeni turistlər gələcəklər, ona görə gəmini yuyub təmizləyirlər. Bizim qayıqdan olan bir-iki nəfərlə qayığa minib əşyalarımızı gətirməyə getdik. Qayıqçı sərxoş olduğundan qayıqda necə oturmaq qaydasını bizə başa salmadı. Yoldaşlarımla birlikdə qayığın bir tərəfində oturduq. Gəmiyə çata-çatda qayığa ağırlıq birtərəfli düşdüyündən hamımız suya yıxıldıq. Güya mən qoçaq tərpəndim və əlimə dəmir dirək keçdi. Köməyə çağırsaq da, gəmidəkilər bizi xeyli gec eşitdilər. Xoşbəxtlikdən Volqanın gur suları bizi yuyub aparmadı. Amma qabırğalarıma bərk ağırlıq düşmüşdü. Bu hadisədən bir ay keçsə də, səhnəyə çıxa bilmirdim. O hadisədən sonra gözüm elə qorxub ki, dənizdə üzməyə "əlvida" demişəm. İndi dəniz sahilinə gəlsəm də, ancaq dalğalara tamaşa etməklə kifayətlənirəm.

## Amaliya Pənahova: "Səhnə paltarlarımın modelini fiqurlu konkisürən qızlardan götürərdim"

Uşaqlıqdan fiqurlu konkisürənlərin oyunu və hokkeylə çox maraqlanırdım. Sizə balaca bir sirr açım: çox vaxt səhnədə müasir qadın, qız sürəti yaradarkən onların geyimlərinin rəngini, modelini konkisürən qızlardan götürərdim. Çünki onların libasları çox cəlbedici olurdu. Səhnə paltarlarımı onların geyimlərinə uyğun hazırlayır və elə tikdirirdim ki, səhnədə hərəkətimə mane olmasın.

### "Neftçi"nin oyununa baxanda yoldaşımdan bərk qışqırırdım

60-cı illərdə futbolçularımızın qələbəsi məni çox sevindirirdi. "Neftçi"nin oyunlarına həyəcansız baxa bilmirdim. Bəzən evdə televizorda futbol matçını seyr edəndə yoldaşım gülüb deyirdi: "Amaliya, sən məndən bərk qışqırırsan". Amma, təəssüf ki, sonradan futbolçularımız əvvəlki kimi oyun nümayiş etdirə bilmədilər. Görünür, keçid dövründə futbol bir qədər diqqətdən kənarda qaldı.

### "Palçıqda döyüşən qadınları görəndə məndə bütün qadınlığa nifrət yaranır"

Zorakı idman növlərinə baxanda ürəyim ağrıyır. İdmanda bir gözəllik olmalıdır. Qaydasız döyüşlərə və palçıq içində güləşən qadınlara baxa bilmirəm. Palçıq içində döyüşmək qadın gözəlliyinə zərbə vurur. Belə oyuna baxanda az qalıram, bütün qadınlığa nifrət edəm. Görəsən, bu oyunun azarkeşləri varmı? Qaydasız döyüşlər televiziyada göstəriləndə mən o dəqiqə kanalı dəyişirəm.

### "Bryüs Liyə baxandan sonra özüm də karate ilə məşğul olmaq istəyirəm"

Karate isə özünümüdafiə ilə yanaşı, gözəl idman növüdür. Bryüs Linin məharətli oyununa baxandan sonra adam az qalır, özü də karate ilə məşğul olsun. Klassik boksdan fərqli kikboksa baxa bilmirəm. Xüsusən Tayson kimi bir-birinin qulağını dişləyəndə heç baxa bilmirəm. Mən pişiyimin adını Tayson qoymuşam. Mərdəkanda yaşayıram, həyətdə toyuq-cücə saxlayırıq. İnanın ki, hələ indiyə qədər bizim həyətdəki toyuq-cücənin birinin də başı kəsilməyib. Böyüdüb dost-tanışa pay veririk. Təki qapı-bacadan həyat səsi gəlsin deyə, saxlayırıq onları. Canlıları çox sevirəm, qorxuram, axırda vegetarian olum.

### Falçılar mənə dənizdən uzaq gəzməyi məsləhət görüblər

Üzməyi necə, bacarırammı? Dənizdən çox qorxuram. Düzünü deyim ki, üzgüçülüklə xüsusi məşğul olmamışam. Böyük nəvəm dünyaya gələndən sonra bu sahə ilə maraqlanmışam. Çünki o, dənizi çox sevir. Bakıda heç vaxt çimərliyə getmirəm, məşhurluğum buna imkan vermir. Bilirsiniz, populyar adamlar çoxluqda da tənhadırlar. Həm də ehtiyat edirəm. Bir-iki dəfə dənizdə qorxulu vəziyyətlərə düşmüşəm. Görünür, axırım dənizdə çatacaq. Falçılar da mənə dənizdən uzaq gəzməyi, gəmi ilə səfərə çıxamamağı məsləhət görüblər. Üzgüçülük hovuzlarında isə ürəklə üzürəm. Həmişə xaricə istirahətə gedəndə nəvəmlə birgə mütləq həmin ölkələrin üzgüçülük hovuzlarına baş çəkirəm.





# Gözlənilməz hadisələr və çempionlarla zəngin möhtəşəm turnir



*Avropa çempionatının tarixi ötən əsrin ortalarına təsadüf edir. Dördildənbir keçirilən birincilik ilk dəfə 1960-cı ildə təşkil olunub. İlk əvvəl turnir Avropa Millətlər kuboku, 1968-ci ildən etibarən isə futbol üzrə Avropa çempionatı adlandırılıb.*

*Avropa çempionu turnirin təşkilatçısı, UEFA-nın ilk baş katibi Anri Delonun şərəfinə Anri Delon kuboku ilə mükafatlandırılır. Qitə birinciliyinin keçirilməsi ideyasının müəllifi Delon ilk çempionatın keçirilməsinə beş il qalmış dünyasını dəyişib. Onun oğlu Pyer mükafat hazırlanmasına cavabdeh olub. İlk kuboku fransalı zərgər Mişel Şobiyon hazırlayıb və qalib komanda növbəti çempionatın startınadək onu muzeyində saxlayır. 2008-ci ilin kubokunun ölçüsündə və xarici görünüşündə bəzi dəyişikliklər edilib. Kubok 18 santimetr hündürləşib və 2 kiloqram ağırlaşıb.*

1954-cü ildə Kopenhagendə keçirilmiş toplantıda Avropa çempionatının hazırlığına qərar verilib. 1956-cı ildə Lissabonda keçirilmiş iclasda seçmə mərhələsinin oyunlarından sonra dörd komandanın final mərhələsində oynamasına qərar verilib. Təşkilatçılar 1960-cı ilin iyun-iyul aylarında dörd yığmanın bir ölkədə qalibi müəyyənləşdirməsi barədə razılıq əldə ediblər. Qeyd edək ki, bu təklif bir çox ölkələr tərəfindən müsbət qəbul olunmayıb. Bununla belə, sonda səs çoxluğu ilə final mərhələsində dörd komandanın mübarizə aparacağı müəyyənləşib.

1976-cı ilədək turnirin həlledici oyunlarında 4 komanda yarışıb. 1980-ci ildə iştirakçı ölkələrin sayı səkkizə yüksəlib. Ötən əsrin sonlarında futbolun inkişaf etdiyini nəzərə alan UEFA 1996-cı ildə növbəti dəyişikliyə əl atıb. Həmin ildən etibarən 16 yığma dörd qrupda qələbə uğrunda mübarizə aparır.

## 1960

İlk Avropa çempionatının final mərhələsində SSRİ, Fransa, Yuqoslaviya və Çexoslovakiya yığmaları mübarizə aparıblar. Yarımfinalda sovet futbolçuları çexlərdən (3:0), yuqoslavlar isə fransalılardan üstün olublar (5:3). Qeyd edək ki, Yuqoslaviya - Fransa matçı birinciliyin tarixində ən məhsuldar oyun kimi yadda qalıb.

Həlledici matçda Milan Qaliça Yuqoslaviya yığmasını hesabda irəli çıxarsa da, SSRİ komandası Slava Metrevelenin sayəsində fərqlənib. Əsas vaxt 1:1 hesabı ilə bitdiyindən əlavə vaxt təyin olunub. Burada isə Viktor Ponedelnik qələbə qolunu vuraraq SSRİ yığmasını ilk Avropa çempionatının qalibi edib.

## 1964

Növbəti Avropa çempionatında meydan sahibləri uğur qazanıblar. İspaniyada keçirilmiş turnirin final mərhələsində meydan sahibləri ilə yanaşı,



SSRİ, Danimarka, Macarıstan komandaları çıxış ediblər. SSRİ futbolçuları titulu qorumaq üçün yaxşı imkan əldə etsələr də, sonda məqsədlərinə nail ola bilməyiblər. Yarımfinalda Danimarkanı ağır məğlubiyyətə uğradan sovet futbolçuları (3:0), finalda pireneyliIərə uduzublar. Əlavə vaxtda Macarıstanı məğlub edən ispanlar meydan sahibi amilindən istifadə edərək birinci olublar. Marselinyo 84-cü dəqiqədə çempionu müəyyənləşdirən qolun müəllifi olub.

## 1968

Dünya çempionatı-1966-da uğursuz çıxış edən İtaliya yığması iki il sonra keçirilən qitə birinciliyində azarkeşlərini sevindirib. İtaliyalılar da dörd il əvvəl İspaniyada olduğu kimi, doğma azarkeşlər qarşısında mükafata sahib çıxıblar.

İtaliya - SSRİ yarımfinal matçının əsas və əlavə vaxtında qalib müəyyənləşmədiyi üçün finalçı püşkatmadan sonra bəlli olub. Dəmir parçası italyanların üzünə "gülüb". Digər oyunda isə yuqoslavlar ingilislərdən üstün olublar (1:0).



Maraqlıdır ki, ikinci dəfə finalda oynayan Yuqoslaviya futbolçuları yenə də azarkeşlərini sevindirə bilməyiblər. 2:0 hesablı qələbə İtaliya yığmasına Avropa çempionu titulunu qazandırıb.

## 1972

1972-ci ilin Avropa çempionatı o dövrlər qitədə "at oynadan" Almaniya yığmasının qələbəsi ilə başa çatdı. Helmut Şönün başçılıq etdiyi komandanın heyətində Frants Bekkenbauer, Paul Braytner, Uli Hönnes, Günter Netser və Herd Müller kimi futbolçulara sahib yığma o vaxt dünyada məğlubedilməz sayılırdı.



Almanlar yarımfinalda meydan sahibləri Belçika komandasını məğlub etdilər. Finalda isə onların rəqibləri macarlara qalib gələn SSRİ millisi oldu. Həlledici oyunda Almaniya futbolçuları Brüsselin "Boduen Rua" arenasında böyükhesablı qələbə ilə çempion titulunu bayram ediblər. Herd Müller finalda iki qol vuraraq, uğurda böyük pay sahibi olub (3:0).



## 1976

5-ci Avropa çempionatında səkkiz komanda iki qrupda mübarizə apardıqdan sonra dörd yığma Yuqoslaviyada qalibi müəyyənləşdirib. Finalda Almaniya millisi titulu qorumaq üçün yaxşı imkan qazansa da, istəyinə nail ola bilməyib. Çexoslovakiya yığması ilə həlledici matç heç-heçə bitdiyindən qalib onbirmetrlik zərbələr seriyasında müəyyənləşib. Qeyd edək ki, Avropa çempionatının tarixində ilk dəfə belə hadisəyə rast gəlinib. Antonin Panenka özünəməxsus zərbə ilə həlledici qolu vuraraq turnirin qəhrəmanı olub. Qeyd edək ki, finalda almanlar 0:2 hesabı ilə uduzsalar da, bərabərliyi bərpa edə biliblər. Amma titulu qorumaq üçün onların bundan artığına gücü çatmayıb.



## 1980

Bu dəfə UEFA final mərhələsində iştirak edən komandaların sayını 8-ə yüksəltmək qərarına gəlib. Qitənin ali qurumu çempionatı ikinci dəfə İtaliya dövlətinə etibar edib. Komandalar iki yarımqrupa bölünərək, qələbə uğrunda yarışıblar.

EURO-76-nın finalında qarşılaşan Almaniya ilə Çexoslovakiya yığmaları qrup mərhələsində üz-üzə gəliblər və almanlar revanş alıblar. Digər görüşləri də uğurlu keçirən Almaniya futbolçuları finala yüksəliblər. İkinci qrupda isə Belçika yığması rəqibləri üçün əlçatmaz olub. "Qırmızı iblislər" vurulan topların sayına görə italyalıları qabaqlayaraq, həlledici matçda oynamaq imkanı əldə ediblər.



Romanın "Olimpiko" arenasında keçirilən oyun Xorst Xrubeşin benefisi ilə yadda qalıb. Finalda iki qol vuran futbolçu almanların ikinci dəfə Avropa çempionu titulunu qazanmasında böyük pay sahibi olub. O, matçın başa çatmasına 6 dəqiqə qalmış başla həlledici qolu vurub.

## 1984

1984-cü ildə Fransa yığması doğma azarkeşlər qarşısında məğlubedilməz olublar. UEFA-nın keçmiş prezidenti Mişel Platinin lideri olduğu komanda qələbəyə layiq olduğunu oyunu ilə sübuta yetirib. Millidə məşqçi Mişel İdalqonun rəhbərliyi ilə qapıçı Joel Bats, "sehirli kvadrat" Mişel Platini, Alan Jiress, Jan Tiqana və Luis Fernandes çıxış ediblər.

Qrup oyunlarından sonra Fransa, Danimarka, İspaniya və Portuqaliya komandaları yarımfinalda çıxış etmək hüququ qazanıblar. Meydan sahibləri gərgin mübarizədən sonra əlavə vaxtda portuqaliyalıları məğlubiyyətə uğradıblar. İspaniyalılar isə oyundan sonra 11 metrlik zərbələr seriyasında skandinaviyalılardan güclü olublar.



Finalda Mişel Platini cərimə zərbəsini ustalıqla yerinə yetirərək, "üçrənglilər"in ilk dəfə çempion titulunu qazanmasına kömək edib.

*(ardı var)*

# Futbol üzrə Avropa çempionatının final mərhələsinin təqvimi "Olimpiya dünyası"nın təqdimatında



## A qrupu

| | | | |
|---|---|---|---|
| Türkiyə | | İtaliya | 11 iyun saat 23:00 Roma (Olimpiya stadionu) |
| Uels | | İsveçrə | 12 iyun saat 17:00 Bakı (Olimpiya stadionu) |
| Türkiyə | | Uels | 16 iyun saat 18:00 Bakı (Olimpiya stadionu) |
| İtaliya | | İsveçrə | 16 iyun saat 23:00 Roma (Olimpiya stadionu) |
| İsveçrə | | Türkiyə | 20 iyun saat 20:00 Bakı (Olimpiya stadionu) |
| İtaliya | | Uels | 20 iyun saat 20:00 Roma (Olimpiya stadionu) |

## C qrupu

| | | | |
|---|---|---|---|
| Avstriya | | Ş.Makedoniya | 13 iyun saat 20:00 Buxarest (Milli Stadion) |
| Niderland | | Ukrayna | 13 iyun saat 23:00 Amsterdam (Yohan Kroyf Arena) |
| Ukrayna | | Ş.Makedoniya | 17 iyun saat 17:00 Buxarest (Milli Stadion) |
| Niderland | | Avstriya | 17 iyun saat 23:00 Amsterdam (Yohan Kroyf Arena) |
| Niderland | | Ş.Makedoniya | 21 iyun saat 20:00 Amsterdam (Yohan Kroyf Arena) |
| Ukrayna | | Avstriya | 21 iyun saat 20:00 Buxarest (Milli Stadion) |

## E qrupu

| | | | |
|---|---|---|---|
| İspaniya | | İsveç | 14 iyun saat 23:00 Sevilya ("La Kortuha" stadionu) |
| Polşa | | Slovakiya | 14 iyun saat 20:00 Sankt-Peterburq (Qazprom Arena) |
| İsveç | | Slovakiya | 18 iyun saat 17:00 Sankt-Peterburq (Qazprom Arena) |
| İspaniya | | Polşa | 19 iyun saat 23:00 Sevilya ("La Kortuha" stadionu) |
| Slovakiya | | İspaniya | 23 iyun saat 20:00 Sevilya ("La Kortuha" stadionu) |
| İsveç | | Polşa | 23 iyun saat 20:00 Sankt-Peterburq (Qazprom Arena) |

## B qrupu

| | | | |
|---|---|---|---|
| Danimarka | | Finlandiya | 12 iyun saat 20:00 Kopenhagen ("Parken" stadionu) |
| Belçika | | Rusiya | 12 iyun saat 22:00 Sankt-Peterburq (Qazprom Arena) |
| Finlandiya | | Rusiya | 16 iyun saat 17:00 Sankt-Peterburq (Qazprom Arena) |
| Danimarka | | Belçika | 17 iyun saat 20:00 Kopenhagen ("Parken" stadionu) |
| Rusiya | | Danimarka | 21 iyun saat 23:00 Kopenhagen ("Parken" stadionu) |
| Finlandiya | | Belçika | 21 iyun saat 23:00 Sankt-Peterburq (Qazprom Arena) |

## D qrupu

| | | | |
|---|---|---|---|
| İngiltərə | | Xorvatiya | 13 iyun saat 17:00 London ("Uembli" stadionu) |
| Şotlandiya | | Çexiya | 14 iyun saat 17:00 Qlazqo ("Hempden Park" stadionu) |
| Xorvatiya | | Çexiya | 18 iyun saat 20:00 Qlazqo ("Hempden Park" stadionu) |
| İngiltərə | | Şotlandiya | 18 iyun saat 23:00 London ("Uembli" stadionu) |
| Xorvatiya | | Şotlandiya | 22 iyun saat 23:00 Qlazqo ("Hempden Park" stadionu) |
| Çexiya | | İngiltərə | 22 iyun saat 23:00 London ("Uembli" stadionu) |

## F qrupu

| | | | |
|---|---|---|---|
| Macarıstan | | Portuqaliya | 15 iyun saat 20:00 Budapeşt (Ferents Puşkaş stadionu) |
| Fransa | | Almaniya | 15 iyun saat 23:00 Münhen ("Alians Arena") |
| Macarıstan | | Fransa | 19 iyun saat 17:00 Budapeşt (Ferents Puşkaş stadionu) |
| Portuqaliya | | Almaniya | 19 iyun saat 20:00 Münhen ("Alians Arena") |
| Portuqaliya | | Fransa | 23 iyun saat 23:00 Budapeşt (Ferents Puşkaş stadionu) |
| Almaniya | | Macarıstan | 23 iyun saat 23:00 Münhen ("Alians Arena") |

| A qrupu | O | Q | M | X |
|---|---|---|---|---|
| Türkiyə | | | | |
| İtaliya | | | | |
| Uels | | | | |
| İsveçrə | | | | |

| B qrupu | O | Q | M | X |
|---|---|---|---|---|
| Danimarka | | | | |
| Finlandiya | | | | |
| Belçika | | | | |
| Rusiya | | | | |

| C qrupu | O | Q | M | X |
|---|---|---|---|---|
| Niderland | | | | |
| Ukrayna | | | | |
| Avstriya | | | | |
| Ş.Makedoniya | | | | |

| D qrupu | O | Q | M | X |
|---|---|---|---|---|
| İngiltərə | | | | |
| Xorvatiya | | | | |
| Şotlandiya | | | | |
| Çexiya | | | | |

| E qrupu | O | Q | M | X |
|---|---|---|---|---|
| İspaniya | | | | |
| İsveç | | | | |
| Polşa | | | | |
| Slovakiya | | | | |

| F qrupu | O | Q | M | X |
|---|---|---|---|---|
| Macarıstan | | | | |
| Portuqaliya | | | | |
| Fransa | | | | |
| Almaniya | | | | |

26 iyun saat 20:00
Amsterdam (Yohan Kroyf Arena)
A2 - B2

26 iyun saat 23:00
London ("Uembli" stadionu)
A1 - C2

2 iyul saat 20:00
Sankt-Peterburq (Qazprom Arena)
41-42-ci cütün qalibi

27 iyun saat 20:00
Budapeşt (Ferents Puşkaş stadionu)
C1 - D/E/F3

27 iyun saat 23:00
Sevilya ("La Kortuha" stadionu)
B1 - A/D/E/F3

2 iyul saat 23:00
Münhen ("Alians Arena")
39-37-ci cütün qalibi

6 iyul saat 23:00
London ("Uembli" stadionu)
46-45-ci cütün qalibi



## FİNAL

11 iyul saat 23:00
London ("Uembli" stadionu)
49-50-ci cütün qalibi




7 iyul saat 23:00
London ("Uembli" stadionu)
48-47-ci cütün qalibi

28 iyun saat 20:00
Kopenhagen ("Parken" stadionu)
D2 - E2

28 iyun saat 23:00
Buxarest (Milli Stadion)
F1 - A/B/S3

3 iyul saat 20:00
Bakı (Olimpiya stadionu)
40-38-ci cütün qalibi

29 iyun saat 20:00
London ("Uembli" stadionu)
D1 - F2

29 iyun saat 23:00
Qlazqo ("Hempden Park" stadionu)
E1 - E3

3 iyul saat 23:00
Roma (Olimpiya stadionu)
43-44-cü cütün qalibi

## Triatlonçumuz Avropa kuboku yarışlarının qalibi oldu

Triatlon yığmamızın üzvü Rostislav Pevtsov Ukraynanın Dnipro şəhərində təşkil olunan sprint üzrə Avropa kuboku yarışlarında qızıl medal qazanıb. Təmsilçimiz 16 ölkədən 39 triatlonçunun mübarizə apardığı yarışı 51 dəqiqə 20 saniyəlik nəticə ilə başa vurub. R.Pevtsov 750 metrlik su məsafəsini 9 dəqiqə 23 saniyəyə qət edib. Ardınca idmançımız 20 kilometrlik velodistansiyanı 25 dəqiqə 47 saniyəyə başa vurub. Nəhayət, yarışların sonuncu mərhələsi - 5 kilometrlik qaçış zolağını təmsilçimiz 14 dəqiqə 58 saniyə nəticə ilə tamamlayıb.

Kseniya Levkovskaya isə bu il beynəlxalq arenada ikinci mükafatını əldə edib. İdmançımız Şarm əl-Şeyxdə keçirilən Açıq Afrika Kuboku yarışlarında bürünc medal qazanıb.

Qeyd edək ki, triatlonçularımız Tokio-2020 Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün iki il ərzində təsnifat yarışlarında iştirak edirlər və Olimpiadaya lisenziya xalları toplayırlar.

## Limassolda keçirilən Karate 1 Liqasında uğurlu nəticə

Kiprin Limassol şəhərində gənclər arasında Karate 1 Liqa yarışı keçirilib. Yarışda ümumilikdə 37 ölkədən 760 idmançı mübarizə aparıb. Turnirdə ölkəmizin uşaq, yeniyetmə və gənclərdən ibarət seçmə komandaları mübarizə aparıb. Yeniyetmə və gənclərdən ibarət komandanın baş məşqçisi Anar Allahverdiyevin rəhbərlik etdiyi heyət turnirdə 3 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb. Belə ki, 14-15 yaşlı yeniyetmələrdən Salman Salmanov və Ramilə Heydərova (hər ikisi kata) qızıl, Mehralı Məmmədov (+70 kq) gümüş, Amin Yadigarlı (52 kq) və Aysu Əliyeva (47 kq) isə bürünc medallara sahib olublar.

Fərid Savadov (55 kq) və Nicat Kərimli (61 kq) isə 16-17 yaşlı gənclərin yarışında uğurla çıxış ediblər. F.Savadov qızıl, N.Kərimli bürünc medal qazanıblar.

Aşağı yaşlı karateçilərimizi, həmçinin böyük məşqçilər Seymur Xudaverdiyev və Nağı Mehdiyev, kata üzrə milli komandanın böyük məşqçisi Anar Əhmədov müşayiət edib. Beynəlxalq referi Mais Mədətov isə görüşlərin idarə olunmasında iştirak edib.

## Karate üzrə beynəlxalq seminar təşkil edilib

Dünya Karate Federasiyası Hakimlər komitəsinin sədri və Tokio Olimpiadasında karate yarışlarının baş hakimi Havier Eskalante Azərbaycan Milli Karate Federasiyasının (AMKF) dəvəti ilə hakimlərimizə növbəti beynəlxalq seminar keçib. Hakimlərlə birgə milli komandanın məşqçiləri və idmançılarının da qatıldığı seminarda yarış qaydalarında yeniliklərlə bağlı məlumat verilib. Görüşlərdə yarana biləcək mürəkkəb anlarda düzgün qərar vermək, eləcə də bir sıra vacib məqamları xatırladan H.Eskalante seminar iştirakçılarının suallarını cavablandırıb. Tədbirin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.



Tokio Yay Olimpiya Oyunlarının karate yarışlarını idarə etməyə təyin edilən 15 beynəlxalq hakimdən biri Cahangir Babayev seminarda H.Eskalanteyə assistentlik edib.

Seminarda çıxışı zamanı Bakıya hər səfərindən məmnun qaldığını söyləyən Havier Eskalante AMKF-in uğurlu fəaliyyəti sayəsində beynəlxalq yarışlarda nəticələrimizdən danışıb, hakim, məşqçi və idmançıların üzərinə düşən vəzifələrin öhdəsindən yüksək səviyyədə gəlindiyini söyləyib. O, Azərbaycan karatesinin uğurlarının təmsil etdiyi təşkilat tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

AMKF-in prezidenti və Dünya Karate Federasiyasının Texniki Komitəsinin üzvü Yaşar Bəşirov Azərbaycan karatesinə verilən bu yüksək dəyərə görə rəsmi qonağa minnətdarlığını ifadə edərək, bu uğurların dövlətin idmana dəstəyi sayəsində əldə olunduğunu bildirib. O, bundan sonra da Azərbaycan idmançılarının dünya karatesinin inkişafına töhfə verəcəklərini deyib.

## Qrossmeysterlərimizin mövqeyi dəyişməz qaldı

Beynəlxalq Şahmat Federasiyası (FIDE) yeni reytinq siyahısını açıqlayıb. İlk “10-luq”da Azərbaycanın 2 təmsilçisi yer alıb.

Şəhriyar Məmmədyarov 2770 xalla 8-ci, Teymur Rəcəbov isə 2 765 xalla 10-cu pillədəki mövqeyini qoruyub.

Nicat Abbasov (2665) və Qədir Hüseynov (2665) bir pillə geriləyib. Onlar müvafiq olaraq 73 və 74-cü sıralarda yer alıb.

Rauf Məmmədov da bir pillə geriləyərək 2654 xalla 90-cı olub.

Siyahıda ilk “üçlük” dəyişməyib. Norveçli dünya çempionu Maqnus Karlsen (2847) birinci, Fabiano Karuana (ABŞ, 2820) ikinci, Dinq Liren (Çin, 2799) üçüncüdür.



Qadın şahmatçılardan Günay Məmmədzadə 1 pillə geriləyərək 2443 xalla 29-cudur. 2 pillə geriləyən Gülnar Məmmədova 2382 xalla 82-ci sıradadır. 2376 xalı olan Xanım Balacayeva da 1 pillə geriləyib və 91-ci pillədə qərarlaşıb.




## Nil sahilindən gümüş medal

İyunun 3-6-da Misirin paytaxtı Qahirə şəhərində idman gimnastikası üzrə Dünya Kuboku təşkil olunub. Yarışda ölkəmizi Cavidan Babayev, Murad Ağarzayev və Sərvər Əliyev təmsil edib. Təsnifat mərhələsində halqalarla çıxışına görə finala adlayan Cavidan Babayev həlledici mərhələdə gümüş medala sahib çıxıb.

Sərbəst hərəkətlər üzrə finala vəsiqə qazanan Murad isə yekunda 6-cı yerlə kifayətlənib.

## İdmana həsr olunan daha bir monoqrafiya işıq üzü görüb

Pedaqogika üzrə elmlər doktoru, professor Dilqəm Quliyevin, Sadıq Sadıqovun və Etibar Quliyevin müəllifliyi ilə qələmə aldıqları “Azərbaycanın qadın idmançıları” adlı monoqrafiya işıq üzü görüb. Oxuculara təqdim olunan monoqrafiya XX yüzillikdə və XXI əsrin birinci yarısında Azərbaycanda qadın idmançılarının həyatı və göstərdikləri idman nailiyyətləri barədə ensiklopedik məlumat toplusudur. Monoqrafiyada Azərbaycanda dövlətin bədən tərbiyəsi və idmana göstərdiyi diqqət və qayğı, qadınlar arasında kütləvi bədən tərbiyəsi və idmanın inkişafı (1920-2020-ci illər), ADBTİA-da idmançı qadın kadrların hazırlanması yolları, Azərbaycanın qadın idmançılarının Olimpiya oyunlarında, dünya, Avropa çempionatlarında və beynəlxalq yarışlarda göstərdikləri nailiyyətlər konkret faktlarla işıqlandırılıb.




Monoqrafiya Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professor-müəllim heyəti, doktorantlar, magistrlər, orta və ali məktəb müəllimlərinin, şagird və tələbələri, bədən tərbiyəsi və idman sahəsində çalışan mütəxəssislər, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Monoqrafiya Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi şurasının 13 dekabr 2019-cu il tarixli iclasında müzakirə edilərək bəyənilib və nəşri məqsədəuyğun sayılıb.

Monoqrafiya müəlliflərin şəxsi vəsaiti hesabına çap olunub.

## AMADA ilə “Sport Integrity Australia” arasında əməkdaşlıq sazişi imzalanıb

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) və Avstraliyanın dopinqlə və idman yarışlarında manipulyasiya ilə mübarizəyə cavabdeh qurumu olan “Sport Integrity Australia” (SIA) arasında 2021-2023-cü illəri əhatə edən əməkdaşlıq haqqında saziş imzalanıb.

AMADA-nın direktoru Şəfəq Hüseynlinin və SIA-nın direktoru Devid Şarpın imzaladıqları sənəddə üç istiqamətdə - təhsil, təhqiqat və idmançılar üçün ödənişsiz hüquqi yardım sahələrində əməkdaşlıq nəzərdə tutulur.

AMADA-nın direktoru Şəfəq Hüseynli bildirib ki, dopinqlə mübarizə sahəsində səmərəliliyin artırılması üçün milli antidopinq təşkilatları arasında təcrübə və məlumat mübadiləsinin aparılması vacibdir. AMADA digər ölkələrin analoji qurumları ilə əməkdaşlığa böyük əhəmiyyət verir və müsbət təcrübələrini onlarla bölüşməyə hazırdır. AMADA ilə SIA arasında təhqiqat və təhsil sahəsi üzrə müvafiq departamentlərin görüşləri keçirilib və bununla bağlı fikir mübadiləsi aparılıb.

SIA-nın direktoru Devid Şarp da beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayaq bildirib ki, idmançıların hüquqlarının qorunması ilə bağlı AMADA-nın həyata keçirdiyi beynəlxalq və yerli layihələr onların böyük marağına səbəb olub. Dünyada antidopinq icraatı zamanı idmançı hüquqlarının qorunmasının hansı dərəcədə təmin edilməsi ilə bağlı AMADA tərəfindən hazırlanmış layihədə iştirak edən ölkələrdən biri də məhz Avstraliyadır. D.Şarp idmançılara ödənişsiz hüquqi yardımın göstərilməsi sahəsində AMADA-nın təcrübəsini öyrənməkdə və bunun Avstraliyada da tətbiqində maraqlı olduqlarını deyib.

Qeyd edək ki, 2021-2023-cü illəri əhatə edən saziş növbəti illərdə antidopinq sahəsinin digər istiqamətlərində də əməkdaşlığı nəzərdə tutur.

## Cüdoçumuz dünya çempionatının bürünc medalına sahib çıxdı



İyunun 6-da Macarıstanın paytaxtı Budapeştdə cüdo üzrə dünya çempionatına start verilib. Olimpiada ərəfəsində təşkil olunan yarışda 118 ölkədən 665 (387 kişi, 278 qadın) cüdoçu mübarizə aparır. Çempionatda ölkəmiz 12 (9 kişi, 3 qadın) cüdoçu ilə təmsil olunur.

İlk yarış günündə komandamızın 4 üzvü tatami üzərinə çıxıb. Təmsilçilərimizdən yalnız Kərəmət Hüseynov (60 kq) mükafatçılar sırasında yer alıb. Mübarizəyə 1/32 finaldan başlayan cüdoçumuz əvvəlcə Mohammad Raşnonezadı (Beynəlxalq Cüdo Federasiyası), ardınca isə Nikolae Foçanı (Moldava) məğlub edib. Təmsilçimiz 1/8 finalda Yaponiya təmsilçisi Ryuju Naqayamaya ilə qarşılaşmada qələbə qazansa da növbəti mərhələdə fransalı Valide Xyara (FRA) məğlub olub. K.Hüseynov təsəlliverici görüşdə monqolustanlı Unubold Lxaqbayamtsa qalib gəlib. Üçüncü yer uğrunda qazaxıstanlı Magzhan Şamsadini məğlub edən Kərəmət dünya çempionatının bürünc medalına sahib çıxıb.

Digər cüdoçularımızdan Davud Məmmədsoy (60 kq) ilk görüşdə Romarik Vend-Yam Buda (Fransa), Leyla Əliyeva Rusiya təmsilçisi Sabina Gilyazovaya, Aişə Qrbanova (hər ikisi 48 kq) isə ispaniyalı Julia Fiqqueroaya məğlub olublar.

## Millimiz Avropa çempionatının seçmə mərhələsində iştirak edəcək

Çimərlik futbolu üzrə Azərbaycan milli komandası Portuqaliyanın Nazare şəhərində EBSL-2021 Avropa çempionatının seçmə mərhələsində iştirak edəcək. Millimizin seçmə mərhələdə qarşılaşacağı rəqiblər müəyyənləşib. Futbolçularımız iyunun 17-də Portuqaliya, ertəsi gün Ukrayna, iyunun 19-da isə Almaniya komandası ilə üz-üzə gələcək.

## Yığmamız Moldovaya məğlub oldu

İyunun 6-da futbol üzrə Azərbaycan millisi təlim-məşq toplanışı çərçivəsində sonuncu yoldaşlıq oyununu keçirib. Millimiz səfərdə Moldova yığmasının qonağı olub.

Kişineudakı “Zimbru” stadionundakı qarşılaşma meydan sahiblərin minimal hesablı qələbəsi ilə başa çatıb.

Oyunda yeganə qolun müəllifi 8-ci dəqiqədə Vitaliy Damaşkan olub.

Qeyd edək ki, bu, iki kollektiv arasında sayca 11-ci görüş olub. İndiyədək təşkil olunan 10 oyunun 8-i yoldaşlıq, 2-si isə dünya çempionatının seçmə mərhələ matçlarına təsadüf edib. Bu qarşılaşmaların üçündə Moldova, ikisində Azərbaycan millisi qələbə qazanıb. Beş görüşdə qalib müəyyənləşməyib.

# MAY
## Ayın yekunu Olimpiya dünyası nın təqdimatında



### Gimnastika

Rusiyanın Soçi şəhərində keçirilən batut gimnastikası, ikili minibatut və tamblinq üzrə Avropa çempionatında Azərbaycan yığması 1 gümüş və 2 bürünc medal qazanıb.

Çempionatın ilk medalı gənclər arasında yarışan tamblinqçilərimizdən gəlib. Hüseyn Əsədullayev, Tofiq Əliyev, Adil Hacızadə və Bilal Qurbanovdan ibarət komandamız fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

Növbəti medal Hüseyn Abbasov və Mahsud Mahsudov sinxron cütlüyündən gəlib. Onlar qitə birinciliyində gümüş medala sahib olublar.

Çempionatın son medalını isə təcrübəli tamblinqçimiz Mixail Malkin qazanıb. Təmsilçimiz, gərgin idman mübarizəsi şəraitində keçən final mərhələsində bürünc medal qazanmağa nail olub.

* * *

Polşanın paytaxtı Varşavada bədii gimnastika üzrə "İrina Cup" beynəlxalq turniri keçirilib. Yarışda ölkəmizi Kamilla Seyidzadə, Alina Məmmədova, Məryəm Əliyeva, Gövhər İbrahimova, Aydan Rəhimova və Şəms Ağahüseynova təmsil ediblər. Təmsilçilərimiz bu yarışdan Vətənə 1 gümüş və 2 bürünc medalla dönüblər.

Gənclər arasında yarışan K.Seyidzadə lentlə final çıxışına görə, gümüş medala layiq görülüb. 2009-cu il təvəllüdlü gimnastlar arasında çıxış edən G.İbrahimova çoxnövçülükdə bürünc medal qazanıb. Ş.Ağahüseynova isə 2010-cu il təvəllüdlülər arasında çoxnövçülük yarışlarında üçüncü olub.

* * *

Milli Gimnastika Arenasında bədii gimnastika üzrə dünya kuboku keçirilib. Olimpiya Oyunlarına təsnifat xarakterli yarışda 35 ölkədən 150-dən çox gimnast yenidən Bakıda fərqlənmək üçün mübarizə aparıb.

Ölkəmizi doğma divarlar arasında fərdi proqramda Zöhrə Ağamirova və Arzu Cəlilova, qrup hərəkətləri proqramında isə Zeynəb Hümmətova, Məryəm Səfərova, Darya Sorokina, Ləman Əlimuradova və Yelizaveta Luzan təmsil edib.

Qrup komandamız ən güclü komandaların gərgin mübarizəsindən mükafatçılar sırasında yer aldı. Hər iki çıxış proqramı üzrə finala adlamış qrupumuz 5 topla final çıxışına görə fəxri kürsünün 3-cü pilləsində yer alıb. Çoxnövçülükdə isə sevimli 5-liyimizi bürünc medaldan cəmi 0,050 xal ayırdı. 2 cüt gürz və 3 halqa ilə qızlarımız 5-ci olublar.

* * *

Ukraynanın paytaxtı Kiyevdə idman gimnastikası üzrə beynəlxalq turnir keçirilib. Turnirdə iştirak edən komandamızın lideri M.Nekrasova dayaqlı tullanma üzrə hərəkətlərdə fəxri kürsünün ilk pilləsinə yüksəlib. Müxtəlif hündürlüklü qollarda çıxışına görə o, üçüncü olub, çoxnövçülükdə isə medalın bir addımlığında dayanıb.

Turnirdə gənclər arasında yarışan N.Teymurova isə 4 medal qazanıb. Sərbəst hərəkətlərdə ikinci olan gimnastımız, çoxnövçülük, dayaqlı tullanma və müxtəlif hündürlüklü qollarda çıxışına görə bürünc medala sahib olub.

* * *

Macarıstanın paytaxtı Budapeştdə idman gimnastikası üzrə beynəlxalq turnir keçirilib.Turnirdə gimnastlarımız komandamızın hesabına 10 medal yazdırıblar. Medallardan 6-sı Aydın Əlizadənin payına düşüb. Çoxnövçülükdə gümüş medal qazanan gimnastımız halqalarla yarışların nəticəsinə görə fəxri kürsünün birinci, dayaqlı tullanma, sərbəst hərəkətlər, turnikdə çıxışına görə ikinci, paralel qollarda çıxışına görə isə üçüncü pilləsinə yüksəlib.

Rəsul Əhmədzadə çoxnövçülük və sərbəst hərəkətlərdə bürünc medal, dəstəli at üzərində hərəkətlərə görə isə gümüş medal qazanıb. Onun komanda yoldaşı Ramin Dəmirov isə halqalar üzərində hərəkətlərdə ikinci olub.

* * *

Milli Gimnastika Arenasında aerobika gimnastikası üzrə doqquzuncu dünya yaş qrupları yarışları keçirilib. Yarışda 18 ölkədən 200 idmançı birincilik uğrunda mübarizə aparıb. Gimnastlar 12-14 və 15-17 yaş qruplarında fərdi qadın və kişi, qarışıq cütlük, üçlük, qrup proqramları üzrə yarışıblar. Eləcə də, 15-17 yaşlı idmançılar aero dans proqramında da öz qüvvələrini sınayıblar.

Aerobika gimnastikası üzrə təmsilçilərimiz iştirak etdikləri ilk dünya birinciliyində 3 proqram üzrə final mərhələsinə vəsiqə qazanıblar.Gimnastika tariximizdə ilk dəfə olaraq bu miqyasda yarışda 12-14 yaş qrupunda çıxış edən gimnastımız Məryəm Topçubaşova fərdi proqramda bürünc medal qazanıb.

* * *

Rumıniyanın paytaxtı Buxarestdə bədii gimnastika üzrə "Irina Deleanu Cup" beynəlxalq turniri keçirilib. Təmsilçilərimiz yarışda uğurla çıxış edərək, komandamıza müxtəlif əyarda 7 medal qazandırıblar. 2007-ci il təvəllüdlü gimnastların yarışında çıxış edən Alina Məmmədova gürzlərlə icra etdiyi kompozisiyasına görə fəxri kürsünün ilk pilləsinə yüksəlib. A.Məmmədova topla çıxışına görə üçüncü olub. Onun həmyaşıdı Kamilla Seyidzadə topla gümüş, halqa ilə çıxışına görə bürünc medal qazanıb.

2009-cu il təvəllüdlü gimnastlar arasında yarışan təmsilçilərimiz də mükafatçılar sırasında yer alıblar. Məryəm Əliyeva halqa ilə fəxri kürsünün birinci, topla çıxışına görə isə üçüncü pilləsində qərarlaşıb. Onunla eyni yaş qrupunda çıxış edən Aydan Rəhimova da halqa ilə bürünc medal əldə edib.

* * *

Bədii gimnastika üzrə yığma komandamızın üzvləri Bolqarıstan Gimnastika Federasiyasının təşkil etdiyi bədii gimnastika üzrə onlayn turnirdə iştirak ediblər. Sayca 3-cü olan bədii gimnastika üzrə "Prize of Julieta Shishmanova" turnirində təmsilçilərimiz 11 medal qazanıblar. Belə ki, böyüklər arasında çıxış edən Arzu Cəlilova top, halqa və gürzlərlə çıxışına görə 2-ci, çoxnövçülük nəticəsinə əsasən 3-cü yerdə qərarlaşıb. Onun komanda yoldaşı Nərminə Səmədova lentlə 3-cü olub, halqa ilə çıxışına görə isə 4-cü yerdə qərarlaşıb.

Gənclər yaş qrupunda iştirak etmiş Kamilla Seyidzadə tam bir medal dəstini əldə edib: topla çıxışına görə 1-ci, lentlə 2-ci və çoxnövçülükdə 3-cü yerdə qərarlaşıb. Onunla eyni yaş qrupunda yarışmış Alina Məmmədova isə həm çoxnövçülük, həm halqa, həm də gürzlərlə 2-ci olub.

* * *

Mayın 27-29-da paytaxtımız aerobika gimnastikası üzrə 16-cı dünya çempionatına ev sahibliyi edib. Azərbaycan təmsilçiləri ölkəmizin ilk dəfə ev sahibliyi etdiyi aerobika gimnastikası üzrə dünya çempionatında dünya çempionu titulunu qazanmağa müvəffəq olublar. Avropa çempionu adını daşıyan Akif Kərimli, Nigar İbrahimbəyli, Ayxan Əhmədli, Nərminə Hüseynova, Mədinə Mutafayeva, Elçin Məmmədov, İmran İmranov və Nurcan Cabbarlıdan ibarət aerodans komandamız bu dəfə də onlara olan inamı doğruldub. Komandamız 18,400 xal yığaraq qızıl medala sahib çıxıb.

* * *

Bolqarıstanın Varna şəhərindən idman gimnastikası üzrə Dünya Kubuku keçirilib. Yarışda ölkəmizi yığma komandamızın üzvləri İvan Tixonov və Nikita Simonov təmsil ediblər.Turnirdə 3 final mərhələsinə adlamış İ.Tixonov kubok yarışlarının sonuncu günündə dayaqlı tullanma aləti üzrə icra etdiyi çıxışına görə bürünc medal qazanıb.

### Cüdo

Kazanda cüdo üzrə "Böyük dəbilqə" turniri keçirilib. Turnirində 79 ölkədən 400-dən çox idmançı mübarizə aparıb. Yarışda iştirak edən Azərbaycan millisi turniri 1 bürünc medalla başa vurub. Yeganə medalı komandamızın aktivinə 81 kiloqram çəki dərəcəsində mübarizə aparan Murad Fətiyev yazdırıb.

* * *

Bakıda paracüdo üzrə "IBSA Judo Grand-Prix Baku 2021" beynəlxalq Qran-Pri turniri keçirilib. Yüksək səviyyədə təşkil edilən yarışda Azərbaycan komandası uğurla çıxış edərək 9 medal qazanıb. Belə ki, Namiq Abbaslı (66 kq), Sevda Vəliyeva (57 kq), Xanım Hüseynova (63 kq) bütün rəqiblərini məğlub edərək qızıl medal əldə ediblər.

Zülfiyə Hüseynova (70 kq) və Hüseyn Rəhimli (81 kq) yalnız finalda uduzaraq ikinci yerə sahib olublar. Vüqar Şirinli (60 kq), Şəhanə Hacıyeva (48 kq), Bəsti Səfərova (52 kq) və Afaq Sultanova (57 kq) isə üçüncü yeri tutublar. Bu nəticə ilə komandamız ümumi hesabda birinci yeri tutub.

### Güləş

Şimali Makedoniyanın paytaxtı Skopyedə 23 yaşadək güləşçilər arasında Avropa çempionatı keçirilib. Komandamız Avropa çempionatında 9 medal qazanıb. Belə ki, sərbəst güləşçilərimizdən Cəbrayıl Hacıyev (70 kq) qızıl, Əliabbas Rzazadə (57 kq), Orxan Abbasov (86 kq), Osman Nurməhəmmədov (92 kq) gümüş, Ziraddin Bayramov (65 kq), İslam İlyasov (97 kq) və Vahid Qalayev (125 kq) bürünc medala sahib olublar. Yunan-Roma güləşçilərimizdən isə Zaur Əliyev (55 kq) Avropa çempionu olub, H.Cəfərov (67 kq) bürünc medal əldə edib.

* * *

Bolqarıstanın paytaxtı Sofiyada yunan-Roma güləşi üzrə U-15 Avropa çempionatı keçirilib. Yarışda məşqçilər Əbülfət Məmmədov və İlham Vəzirovun rəhbərliyi altında 12 yeniyetmə pəhləvanımız qüvvəsini sınayıb.

Qitə birinciliyində ölkəmizi təmsil edən idmançılardan ikisi fəxri kürsüyə qalxıb. Turan Daşdəmirov (38 kq) və Rinat Nuriyev (62 kq) Avropa çempionatını gümüş medalla başa vurublar.

### Karate

Portuqaliyanın paytaxtı Lissabonda Karate1 Premyer Liqa turniri keçirilib. Mötəbər yarışda Azərbaycanı 15 idmançı təmsil edib. Komandamız yarışı iki medalla başa vurub. Təmsilçimiz Asiman Qurbanlı (84 kiloqramdan yuxarı) gümüş medala sahib çıxıb. Heyətində Rövşən Əliyev, Tural Bəcanlı, İsmayıl Quliyevin yer aldığı kata komandamız isə bürünc medal uğrunda Misir yığmasına qalib gələrək üçüncü yeri tutub.

* * *

Xorvatiyanın Poreç şəhərində karate və parakarate üzrə Avropa çempionatları keçirilib. Təmsilçilərimiz karate üzrə Avropa çempionatını 4 medalla başa vurub. İdmançılarımızdan İrina Zaretska (68 kq) qızıl, Rafael Ağayev (75 kq) və Pənah Abdullayev (84 kq) gümüş, kumite milli komandamız isə bürünc medal qazanıb. Bu nəticə ilə millimiz 4-cü sırada qərarlaşıb.

Parakarate üzrə Avropa çempionatını isə millimiz 3 medalla başa vurub. Belə ki, təmsilçimiz Emilia Mitilinova birinci, Sahib və Eldar Əhmədov üçüncü yeri tutublar. Bu nəticə ilə komandamız ümumi hesabda üçüncü pillədə qərarlaşıb.

### Boks

Monteneqronun Budva şəhərində gənc və yeniyetmə boksçular arasında beynəlxalq turnir keçirilib. 15 ölkənin iştirak etdiyi yarışda Azərbaycan milli komandası mübarizə aparıb. Budvaya 10 boksçu ilə yollanan komandamız 3 qızıl, 2 gümüş və 2 bürünc medala sahib olub.Kənan Babayev (48 kq) finalda Gürcüstanı təmsil edən Oruc Əhmədovu, Məhəmmədəli Qasımzadə (54 kq) bolqarıstanlı Viktorio İliyevi, Sənan Hətəmov (63 kq) ukraynalı Oleq Sapijakı məğlub edərək qızıl medala yiyələnib.

Digər təmsilçilərimiz Tofiq Quliyevlə (46 kq) Ziya Həsənov (66 kq) həlledici görüşdə məğlub olaraq ikinci yeri tutublar. Yığmamızın üzvləri İbrahim Zeynalov (50 kq) və Xaqani Quliyev (+80 kq) isə bürünc medalla kifayətləniblər.

### Ağırlıqqaldırma

Ustad ağırlıqqaldıranlar arasında dünya çempionatı keçirilib. 80-ə yaxın ölkədən 758 atletin (399 kişi, 359 qadın) iştirak etdiyi yarış koronavirus pandemiyası ilə əlaqədar "Zoom" proqramı vasitəsilə keçirilib. Azərbaycanı yarışda 4 idmançı təmsil edib. Yaşı 70-74 arası olan atletlərin (M-70) qrupunda "Zirvə" klubunun təmsilçiləri Səddar Quliyev (81 kq) və Vladimir Jilyayev (96 kq) gümüş medallara sahib olublar. S.Quliyev ümumilikdə 138 (59+79), V.Jilyayev isə 151 kiloqram (66+85) nəticə göstəriblər.

Yaşı 35-39 arası olan atletlərin (M-35) qrupunda "Dinamo" klubunun təmsilçisi Virur Bayramov (89 kq) 299 kiloqram (136+163) nəticə ilə gümüş medala layiq görülüb.

Komandamızın aktivinə qızıl medalı isə 96 kiloqram çəki dərəcəsində çıxış edən Elnur Hüseynov ("Zirvə") yazdırıb. Ümumilikdə 331 kiloqram (150+181) nəticə ilə dünya çempionatının qızıl medalını qazanan idmançı öz yaş qrupunda dünyanın ən yaxşı atleti seçilib.

### Avarçəkmə

Azərbaycan kayakçısı Tofiq Bayramov Slovakiyanın paytaxtı Bratislavada keçirilən beynəlxalq reqatanın qalibi olub. Sayca 35-ci dəfə təşkil olunmuş yarışda 17 yaşlı idmançı yeniyetmələrin 1 nəfərlik qayıqla 200 metr məsafəyə yürüşündə qızıl medal qazanıb.O, seçmə mərhələdə finişə 41,302 saniyəyə, yarımfinalda 41,430 saniyəyə, finalda isə 41,190 saniyəyə çatıb.

### Qılıncoynatma

Sablya üzrə qadınlardan ibarət milli komandamız Sankt-Peterburqda keçirilən Ümumrusiya açıq turnirində iştirak edib.Qrup mərhələsini dörd qələbə ilə başa vuran Anna Başta pleyoffda da uğurlu çıxışı ilə yadda qalıb. Rusiyanın güclü sablyaçılarının yarışdıqları turnirdə A.Başta finalda Olqa Nikitinaya 6:15 hesabı ilə uduzaraq turnirin gümüş medalına layiq görülüb.

### Velosiped idmanı

Azərbaycanın şose velosipedi üzrə elit yığma komandasının üzvü Samir Cəbrayılov açıq Ukrayna kuboku yarışının üçüncü mərhələsinin qalibi olub.

Təmsilçimiz 4 günlük yarışın yekununa əsasən, bütün rəqiblərini qabaqlamaqla fəxri kürsün ən yüksək pilləsinə qalxıb.

# Ölkəmizi Çempionlar Liqasında "Araz" klubu təmsil edəcək

Azərbaycan Futzal Federasiyasının (AFF) İcraiyyə Komitəsinin videokonfrans formatında iclası keçirilib. İclasda AFF-nin prezidenti Zaur Axundov, vitse-prezident Rəmiş Malıyev, İcraiyyə Komitəsinin (İK) üzvləri - Mahmud Sadıqov və Turqay Fərzəliyev, AFFA-nın Futzal üzrə koordinatoru Zaur Hacı-Məhərrəmov iştirak ediblər.

İK-nın iclasında pandemiya səbəbindən ötən il martın 14-dən ölkədə idman zallarının fəaliyyətinə qadağanın tətbiq edilməsi və buna görə futzal üzrə Yüksək Liqanın 2020/2021-ci il mövsümünün keçirilməməsi nəzərə alınaraq, növbəti mövsüm futzal üzrə UEFA Çempionlar Liqasında çıxış edəcək klub müəyyənləşib.

Qərara əsasən, UEFA Çempionlar Liqasının 2021/2022-ci il mövsümündə ölkəni "Araz" klubu təmsil edəcək.




Qeyd edək ki, AFFA-nın İcraiyyə Komitəsinin mayın 31-də keçirilmiş iclasında növbəti mövsüm futzal üzrə UEFA Çempionlar Liqasında çıxış edəcək klubun müəyyənləşdirilməsi AFF-yə tapşırılıb.

# Atletika üzrə zona yarışı keçirilib

Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunan yeniyetmələr arasında respublika turnirinin atletika üzrə Bakı şəhər zona yarışı keçirilib. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda keçirilən yarışda paytaxtın 12 rayonu ilə yanaşı, Zəngilan və Şuşa rayonlarını təmsil edən komandalar da mübarizə aparıb.



Yarışdan əvvəl Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Nərimanov rayonunun komandası qalib gəlib. Xətai və Xəzər rayonlarının təmsilçiləri müvafiq olaraq birinci və ikinci olublar.

Zona yarışlarında ilk iki yeri tutan komandalar final mərhələsinə vəsiqə qazanıblar.

Mükafatçılara Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən diplomlar təqdim edilib.

## Ölkəmizin də namizəd olduğu Avropa çempionatına Monteneqro ev sahibliyi edəcək

Bu il kikboksinq üzrə yeniyetmə və gənclər arasında Avropa çempionatına Monteneqronun Budva şəhəri ev sahibliyi edəcək. Noyabrın 5-dən 14-dək keçiriləcək yarışa ev sahibliyi etmək üçün namizədlər arasında Azərbaycan və Niderlandın da adı var idi. Bunun üçün WAKO prezidenti Roy Beyker Bakıya gələrək, Azərbaycan Kikboksinq Federasiyası və Milli Olimpiya Komitəsində görüşlər keçirmişdi. Lakin WAKO Avropa İdarə Heyətinin növbədənkanar iclasında qəbul olunan qərara əsasən yarışa ev sahibliyi etmək hüququ Monteneqroya verildi.

Qeyd edək ki, ölkəmiz bundan əvvəl 2021-ci il Dünya çempionatına da ev sahibliyi etmək üçün namizədliyini irəli sürmüşdü. 4 ölkənin - Azərbaycan, Niderland, İtaliya, Monteneqronun namizəd olduğu mübarizədə İtaliyanın Cesolo şəhəri yarışa ev sahibliyi etmək hüququnu qazanmışdı. Həmin çempionat oktyabrın 14-dən 24-dək təşkil olunacaq.

# Mahir Emreli "Legiya" ilə müqavilə imzalayacaq

Polşanın "Legiya" klubuna keçəcəyi gözlənilən Azərbaycan millisinin futbolçusu Mahir Emreli Varşavaya yola düşüb. "Qarabağ"




futbolçusu Polşada tibbi müayinədən keçdikdən sonra, növbəti həftə rəsmi müqavilə imzalayacaq.

Müqavilənin müddəti sonradan daha 1 il uzadıla bilməsi şərti ilə 3 il olacaq.

Qeyd edək ki, Mahir Emreli 2015-ci ildən "Qarabağ"ın heyətində çıxış edib. Onun Ağdam təmsilçisi ilə müqaviləsi başa çatıb. Forvard Premyer Liqada ötən mövsüm 18 qolla bombardirlik yarışında ikinci olub.

# Gözlənilən döyüşdən gözlənilməz nəticə

Mayamidə Hard Rock Stadiumda təşkil olunana boks şousu sona çatıb. Gecənin əsas döyüşü amerikalı boksçu Floyd Meyvezer ilə YouTube blogeri Loqan Pol arasında keçirilib. Sərgi döyüşü 8 raunddan ibarət olub. Amma nə qədər gözlənilməz olsa da, Meyvezer 8 raund ərzində bloggerə qalib gələ bilməyib və görüş heç-heçə başa çatıb.



Qeyd edək ki, 44 yaşlı F.Meyvezer yarımorta çəki dərəcəsində 50 dəfə qələbə qazanıb və bir dəfə də olsun məğlub olmayıb. 2017-ci ilin avqust ayında boksçu xüsusi WBC Money Belt kəməri uğrunda UFC döyüşçüsü Konor Makqreqora qalib gəlmişdi. 26 yaşlı L.Polun hesabında isə boks qaydalarına uyğun bir döyüş var. O, 2019-cu ilin noyabr ayında 6 raunddan ibarət döyüşdə hakimlərin qərarı ilə həmkarı YouTube KSI-ə məğlub olub.

# Ukrayna Avro-2020-ə Krım ilə çıxacaq

Avro 2020-də iştirak edəcək Ukrayna millisinin Krım əks olunan forması bütün qaydalara uyğundur. Bu barədə UEFA-nın mətbuat xidmətindən məlumat verilib.

"Avropa çempionatında iştirak edəcək Ukrayna millisinin forması digər iştirakçı komandalar kimi, qaydalara uyğun olaraq UEFA tərəfindən təsdiq edilib", - deyə UEFA-dan bildiriblər.



Qeyd edək ki, millinin yeni formasının üzərində Krım yarımadası daxil olmaqla Ukraynanın ərazisi işarələnib. Mərkəzdə isə Ukrayna millisinin gerbi təsvir olunub. Artıq bir çoxları bunun provokasiya olduğunu deyib.

Məlumat üçün bildirək ki, Rusiya Dövlət Duması UEFA-nı formanı qadağan etməyə səsləyib.

## *"Sambaçı"lar Amerika Kubokundan imtina etdilər?*

Braziliyanın futbol üzrə yığması Amerika Kubokunda iştirakdan imtina barədə qərar qəbul edib.

Yığmanın futbolçuları Amerika Kubokunun onların ölkəsində keçirilməsi qərarından narazı qalıblar. Milli komandanın veteranları Braziliya Futbol Federasiyasının rəhbəri Rojerio Kaboklo ilə danışıqlarda KİV-də bu barədə məlumat əldə etdikdə yarışın ölkədə təşkili qərarından narazılıqlarını ifadə ediblər. Oyunçular federasiya rəhbəri ilə Kubokda iştirakdan və ya yarışın ləğvindən imtina imkanını müzakirə ediblər.

Dialoqun nəticəsinə əsasən futbolçular yarışda iştirak etməmək barədə qərar qəbul ediblər. Həmçinin braziliyalılar başqa yığmaların oyunçularını da bu il Amerikanın Kubokunun keçirilməsinə qarşı mütəşəkkil çıxış etmək barədə razı salacaqlar.



Qeyd edək ki, Amerikanın Kuboku yarışını Kolumbiya və Argentina qəbul etməli idi. Mayda CONMEBOL Kolumbiyanı ölkədə kütləvi etirazlara görə yarışın keçirilməsi hüququndan məhrum edib. Ötən ayın sonunda təşkilat elan edib ki, Argentina da matçları qəbul edə bilməyəcək. Buna ölkədəki koronavirus pandemiyası səbəb olub.

**olimpnews.az - sizin saytınız**




Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19